# İdeallar və mübarizə əzmi əbədi yaşayır



**Azərbaycan hərb tarixinə qızıl hərflərlə adını yazdırmış qəhrəmanlardan biri də general-mayor Həbib bəy Səlimovdur. O, 1881-ci il fevralın 8-də İrəvanda dünyaya göz açıb. İlk təhsilini İrəvan Müəllimlər Seminariyasında alıb. Atası Hacı Yusif bəy həmin dövrdə tanınmış ziyalılardan biri olub, İrəvan quberniyasında məhkəmə iclasçısı vəzifəsində çalışıb.**

Həbib bəyin hərbə qədəm qoyması 1900-cü ilin avqust ayına təsadüf edir. O, könüllü olaraq orduya yazılıb və 156-cı Yelizavetpol (Gəncə) süvari alayında xidmətə başlayıb. Bir ildən artıq müddətdə burada qulluq etdikdən sonra unter-zabit rütbəsi alıb. 1902-ci ildə Tiflisdə süvari məktəbini müvəffəqiyyətlə başa vuraraq Üçüncü Qafqaz Atıcı Batalyonunda zabit kimi xidmətə başlayıb və podporuçik rütbəsinə layiq görülüb. 1905-ci ildə batalyon komandirinin yavəri, 1907-ci ildə isə həmin hərbi hissənin üçüncü bölüyünün komandiri təyin edilib. Həmin ilin sentyabrında "Müqəddəs Vladimir" ordeni ilə təltif olunub. 1908-1910-cu illərdə Beşinci Qafqaz Atıcı Batalyonunun tərkibində Culfa sərhədlərinin keşiyində dayanıb, mühüm tapşırıqlar yerinə yetirib. Hətta xüsusi missiya ilə İrana, Tehran şəhərinə göndərilib. 1912-ci ildə kapitan rütbəsinə yüksəlib və Peterburqda Baş Qərargahın nüfuzlu Nikolayev Hərbi Akademiyasını bitirib.

Həbib bəy Səlimov Azərbaycan hərb tarixində şərəfli yeri olan igid sərkərdələrdən biridir. Onun keçdiyi döyüş yolu, qazandığı nailiyyətlər və vətənpərvərliyi gənc nəslə örnəkdir. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə ölkəyə dönən polkovnik-leytenant yeni formalaşan ordunun təşkilində misilsiz rol oynadı. Onun hərbi bilikləri və idarəçilik bacarığı milli ordunun qurulmasında mühüm töhfələr verdi. İlk mərhələdə o, Milli Ordunun Dəftərxanasına rəhbərlik etməyə başladı və burada təşkilati işləri koordinasiya etdi.

1918-ci ilin avqustunda Qafqaz İslam Ordusunun komandanı Nuru paşanın göstərişi ilə Azərbaycan korpusunun yenidən formalaşdırılması prosesi başladı. Həbib bəy Səlimov isə bu mühüm dövrdə öz peşəkarlığı və zəngin hərbi təcrübəsi ilə fərqləndi. Bu səbəbdən o, korpusun qərargah rəisi təyin edildi və Azərbaycan ordusunun nizamlı, güclü bir quruma çevrilməsi üçün səylə çalışdı. Onun rəhbərliyi ilə həyata keçirilən islahatlar qısa müddətdə öz bəhrəsini verdi və milli ordu Bakının azad edilməsində həlledici rol oynadı. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti bolşevik-daşnak birləşmələrinin vəhşiliyinə qarşı ölüm-dirim mübarizəsi apararkən Gəncə-Bakı istiqamətində irəliləyən Cənub qrupunun komandiri Həbib bəyin hərbi bacarığı və cəsarəti xüsusi qeyd olundu. Xüsusilə dəmir yolu xətti boyunca gedən ağır döyüşlərdə onun təşkilatçılıq qabiliyyəti və fədakarlığı ordunun uğurlarında həlledici rol oynadı. Məhz bu xidmətlərinə görə Azərbaycan hökuməti tərəfindən o, polkovnik rütbəsinə layiq görüldü.



Həbib bəyin hərbi məharəti və liderlik keyfiyyətləri təkcə Azərbaycanda deyil, Türkiyədə də yüksək qiymətləndirilirdi. "Böyük hərbdə Bakı yollarında. 5-ci Qafqaz piyada firqəsi" kitabında türk polkovniki Rüştü bəy onun barəsində belə yazırdı: "Cəsur, döyüş texnikasını gözəl bilən türk ordusunun yüksəkrütbəli zabitləri tərəfindən layiqincə qiymətləndirilən polkovnik Həbib bəy rus ordusunda yetişmiş azərbaycanlı zabitlərdəndir".



Vətən qarşısında fədakarlığı 1919-cu ilin 26 fevral tarixində daha bir mühüm qərarla dəyərləndirildi. Müdafiə Nazirliyinin 31 saylı əmri ilə H.Səlimova general-mayor rütbəsi verildi. Bununla da o, Azərbaycan Milli Ordusunda Baş Qərargah Akademiyasını bitirmiş ikinci general oldu. Birincisi isə əslən Litva tatarı olan general-leytenant Məmməd bəy Sulkeviç idi. Həbib bəyin komandanlığı altında Azərbaycan ordusu erməni quldur dəstələrinə qarşı mübarizədə mühüm uğurlar qazandı və Qarabağda sabitliyin təmin olunması üçün ciddi addımlar atıldı. O, peşəkar zabit, həm də vətəninin bütövlüyü uğrunda yorulmadan mübarizə aparan bir sərkərdə idi. General-mayor Həbib bəy Səlimov əqidəsinə, xalqına və dövlətinə sadiq bir hərbçi idi. Lakin bu sadiqlik ona düşmənlər də qazandırmışdı. 1918-1920-ci illərdə həm bolşevik pərdəsi arxasında gizlənən daşnaklar, həm də içimizdəki satqınlar ona qarşı sui-qəsd planları qururdular. Onu məhv etmək istəyənlər fürsət axtarırdı və nəhayət, 1920-ci ilin aprel işğalından sonra istədiklərinə nail oldular. Azərbaycan bolşeviklərin nəzarətinə keçdikdən sonra o, uydurma ittihamlarla həbs edildi.

Sənədlərdə ona qarşı irəli sürülən absurd iddialar açıq-aşkar siyasi qisasın təzahürü idi. Guya Tiflis və Bakıda əks-inqilabi təşkilat yaradıb, üsyana hazırlaşır, general Vrangel vasitəsilə silah tədarük edir, hətta Cavad qəzasında İranın Şahsevən tayfalarının köməyilə sovet hakimiyyətinə qarşı çıxmağa çalışırdı. Üstəlik, bu ittihamların inandırıcılığını artırmaq üçün onun "ticarətlə məşğul olduğu" da dosyesinə əlavə olunmuşdu. Məqsəd generalı silahlı qiyam iddiası sübuta yetirilməsə, heç olmasa "tacir" damğası vuraraq həbsdə saxlamaq idi. Həbsxanada keçirdiyi üç ay yarım ərzində milli ordunun görkəmli generalları arasında yer alan Həbib bəy ona qarşı irəli sürülən iddiaların heç birini qəbul etmədi. O, bolşeviklərin qondarma ittihamlarını yazılı şəkildə rədd edirdi. Lakin qırmızı terror maşını üçün həqiqət deyil, güc və qorxu önəmli idi. Onu günahlandırmaq üçün 1919-cu ildə Lənkəran yürüşü zamanı guya əhalini talaması, Nuru paşa və Zeynalovla əlaqəsi, sovet hakimiyyətinə nifrət bəsləməsi və Naxçıvanda xan-bəylərlə münasibətdə olması bolşeviklərin əlinə "əsaslı sübut" kimi verildi.

Onu məhv etmək üçün hətta Naxçıvandan Bakıya tarixsiz, imzasız donos məktubu da göndərildi. Azərbaycan Fövqəladə Komissiyasının mühüm şöbəsinin katibindən gələn bu sənəddə iddia edilirdi ki, o, Naxçıvan camaatını sovet hakimiyyətinə qarşı qaldırır, xan və bəylərlə əlaqələr qurur, hətta İrana keçib orada qaçqın feodallarla birgə hərəkət edir. Bolşeviklərin gözündə bu kifayət qədər "ciddi günah" idi. Belə saxta ittihamların nəticəsi olaraq 1920-ci il dekabrın 30-da səhər saat 10:30-da Azərbaycan Xalq Cümhuriyyətinin Baş Qərargah rəisi bolşeviklərin güllələsinə tuş gəldi. O, bir dövlətin müstəqillik uğrunda mübarizəsinin rəmzi kimi qətlə yetirildi. Lakin onun adı tarixdən silinmədi.

**Röya RÜSTƏMLİ,**
**"Respublika".**